

# Əgər sən ayda yaşasaydın

3asafeer.com

Müəllif: Mervat El-beltagi
İllüstrator: Eslam Abd-elrazeq

The original work of this book was made possible through the generous support of the All Children Reading: A Grand Challenge for Development (ACR GCD) Partners (the United States Agency for International Development (USAID), World Vision, and the Australian Government). It was prepared by Asafeer Education Technologies FZ LLC and does not necessarily reflect the views of the ACR GCD Partners. Any adaptation or translation of this work should not be considered an official ACR GCD translation and ACR GCD shall not be liable for any content or error in this translation.

cc BY NC SA



Əgər ayda yaşasan, hər an başına düşə biləcək kometa yağışından qorunmaq üçün paltara ehtiyacın olacaq.



Əgər səmada yaşasan, bədənini örtmək üçün sənə lələklər və uçmaq üçün iki qanad lazım olacaq. Aha! Sənə həm də dimdik lazım olacaq. Bip! Bip! Bip!
Oğlan ağacın üstündə quş kimi hərəkət edir.



Əgər bir dağın başında yaşasan, qayalar arasından hoppanmaq üçün sənə iki nazik uzun ayaq lazım olacaq. Oh! Sən dağ keçiləri kimi olardın. Hop! Hop!



Əgər güllərin arasında yaşasan, böyük bir ağzının olmasına ehtiyac qalmayacaq. Əlbəttə yeyəcəksən, ancaq bir kəpənək kimi yeyəcəksən. Güllərdən nektar sormaq üçün uzun bir burnun olacaq.



Əgər qaranlıq mağarada yaşasan, gözlərinə ehtiyac qalmayacaq. Ora onsuz da qaranlıqdır. Sənə sadəcə ulduz burunlu köstəbəyinki kimi burun lazım olacaq. Bəli! Sən gülməli görünəcəksən. Ha ha ha!



Əgər dənizdə yaşasan, hətta burnuna da ehtiyac olmayacaq. Sadəcə, sualtında nəfəs almaq üçün bir sıra qəlsəmələr lazım olacaq. Ha Ha Ha.. Və suda danışa bilməyəcəksən. Bul Bul!



Əgər Şimal Qütbündə yaşasan, on qat paltar və ya, bəlkə bir ayının xəzinə ehtiyacın olacaq. Pinqvinlər kimi əlavə sərt dəriyə ehtiyacın ola bilər. Yox Yox! Pinqvini belinə qoyma. Siz dost ola bilərsiniz. O gözəldir.



Tropik bir meşədə yaşasan. Düzü, indi geyindiyin paltarlara belə ehtiyac qalmayacaq. Heç lələklər də lazım olmayacaq. Sadəcə yelpik düzəltmək istəsən lələyə ehtiyacın ola bilər. Güclü yağışdan qorunmaq üçün mütləq bir çətir lazım olacaq.



Amma.. Əgər mənim evimdə yaşasan, təsadüfi atışlardan qorunmaq üçün bir şey geyinməlisən və bilirsən nə var ...



Qanadlarının olmasını arzulayacaqsan... bəli uçmaq istərdin.



Sən həm də arzu edəcəksin ki, ayı xəzinə və ya pinqvin dərisinə sahib olasan. Bura buzxanadır. Kondisioneri söndür.



Sonra, dağ keçiləri kimi nazik ayaqlarının olmasını arzulayacaqsan.



Ancaq bu sevimli qoxunu iyləmək üçün burnunun olduğuna görə mütləq Allaha şükür edəcəksən.



Bəli, sən mütləq ən bəxtəvərisən! Çünki dünyanın ən ləzzətli yeməklərini dadacaq bir ağzın var; ananın yeməyi.



SON